**GÖZƏL ƏLƏKBƏRLI**
**Bakı Avrasiya Universiteti,**
**magistr, II kurs**
**gozelekber@gmail.com**

# İNGILIS ROMANTIZMINDƏ "GÖL MƏKTƏBI"NIN YERI VƏ ROLU

İngilis və Amerikan ədəbiyyatşünaslığı gölçüləri və onların tərəfdarlarını 19-cu əsrin ən böyük İngilis şairləri kimi təsvir edir. Tez-tez onları həqiqətən də böyük şairlər olan, öz əsərlərində daim "Göl məktəbi" şairlərini tənqid edən Bayron və Şellidən yuxarı mövqeyə qoyurlar. Leykistlərin ədəbi fəaliyyətləri 19-cu əsrin ortalarına qədər davam etmişdir. Leykistlər köhnə, orta əsrlərdən qalma patriarxal cəmiyyət münasibətlərinin dağılmağını aydın şəkildə görürdülər, çünki bunlar gözlərinin qarşısında baş verirdi, amma buna baxmayaraq onlar eyni zamanda inanırdılar ki, bu dağınıqlıq kapitalizmin yüksək tənəzzülünə gətirib çıxaracaq. XIX əsrin birinci onilliyin ortasında "Göl məktəbi" İngilis ədəbiyyatının hakim axınını təqdim etmiş yazıçıların rəsmi tanınmış qrupuna çevrildi. İngiltərəni idarə edən siniflər onlara dəstək göstərib himayə edirdilər. 1809-cu ildə ədəbi reaksiyanın zəfəri gözlənilməz bir hücuma məruz qaldı: İyirmi yaşlarındakı Bayron "İngilis bardları və Şotland müşahidəçiləri"də leykistləri kəskin ifşa edən tənqidiylə çıxış etdi. İngilis ədəbiyyatında tənqidi realizm dövrü yaxınlaşan bir vaxtda, XIX əsrin 20-30-cu illərində hələ də leykistlər öz estetik prinsiplərini davam etdirməkdə idilər.

Açar sözlər: Bayron, Göl məktəbi, Vordsvort,İngilis romantizmi, Sauti, Kolric

İngilis və Amerikan ədəbiyyatşünaslığı gölçüləri və onların tərəfdarlarını 19-cu əsrin ən böyük İngilis şairləri kimi təsvir edir. Tez-tez onları həqiqətən də böyük şairlər olan, öz əsərlərində daim "Göl məktəbi" şairlərinin tənqid edən Bayron və Şellidən yuxarı mövqeyə qoyurlar. Leykistlərin ədəbi fəaliyyətləri 19-cu əsrin ortalarına qədər davam etmişdir. 1843-cü ildə artıq "Şeytan məktəbi" adlandırılan Bayron, Şelli və Kits həyatda olmadıqları vaxtda Vordsvort Sautidən sonra saray şairi adına layiq görülmüşdü. Özünəməxsus romantik estetik proqramları olan Vilson və de Kvinsi ədəbiyyatda Vordsvort, Kolric və Sautidən sonra meydana çıxmışlar.

Vordsvort əyalət hüquqşünasının oğlu idi, uşaqlıq və erkən yeniyetməliyini hələ kəndli həyatının patriarxal tərzi kapitalizmin inkişaf təzyiqinin altında olmayan İngiltərənin şimalında-Kemberlenddə keçirmiş, Kembric universitetində təhsil almışdır. 90-cı illərdə Fransa, İsveçrə, Almaniyanı ziyarət etmiş ancaq 90-cı illərin ortalarından etibarən kənddə yaşamış və nadir hallarda Londonda görünmüşdür.

Kolric əyalət kənd keşişinin oğludur. Təhsilini Kembric universitetində almış, publisist və mühazirəçi kimi çıxış etmiş, jurnallar çıxarmışdır.

Tacir oğlu Sauti Oksford universitetində oxumuşdur. Hələ tələbəlik illərində o Kolriclə yaxınlaşmış sonradan Vordsvortla tanış olmuşdur. Bir müddət İspaniya və Portuqaliyada qaldıqdan sonra Vordsvorta daha yaxın olmaq məqsədilə göllər bölgəsinin Kesvik əyalət şəhərciyində yerləşmişdir.

Leykistlər köhnə, orta əsrlərdən qalma patriarxal cəmiyyət münasibətlərinin dağılmağını aydın şəkildə görürdülər, çünki bunlar gözlərinin qarşısında baş verirdi, amma buna baxmayaraq onlar eyni zamanda inanırdılar ki, bu dağınıqlıq kapitalizmin yüksək tənəzzülünə gətirib çıxaracaq.

Leykistlər öz poetik leksikalarının sadəliyi ilə fəxr edirdilər, amma bu sadəlik az istifadə olunan arxaizm və dialektlərlə zəngin olduğundan adətən, bu şairlərin dilini salon ədəbiyyatının jarqonuna çevirirdi.

Onların poeziyasının dili həqiqətdən ayrılıb getməyə, leykistlər üçün mürəkkəb və xoşagəlməz hadisələri sadələşdirməyə vasitə idi. Bayron Vordsvortu tənqid edərkən, həyatın sadələşdirilmiş, süni-sadəlövh təsvirinə dair romantizmin xüsusilə bu arzusuna təcavüzkar hücum edirdi.

Şübhəsizdir ki, Vordsvort şeirlərində ingilis təbiəti yeni üslubda durdu: klassisist parafrazlardan və mifoloji şərtiliklərdən imtina edərək Vordsvort yarpaqların və işıq effektlərinin çalarlarının ötürülməsi üçün dəqiq və ifadəli sözlər tapırdı. O, bu sözlərlə İngiltərənin meşələri, otlaqları və çəmənlərini daha da canlı təsvir edirdi. Məhz bu xüsusiyyətlərinə görə Vordsvort yaradıcılığı Bayron və Şelli təbiət təsvirlərindən- peyzajından kəskin fərqlənmişdir.

XIX əsrin birinci onilliyin ortasında "Göl məktəbi" İngilis ədəbiyyatının hakim axınını təqdim etmiş yazıçıların rəsmi tanınmış qrupuna çevrildi. İngiltərəni idarə edən siniflər onlara dəstək göstərib himayə edirdilər. Sauti saray nəzarətində idi, Kolricə varlı zavod sahibləri olan Vecvudlar təqaüd ödəyirdilər, Vordsvort isə xüsusi kilsə imtiyazlarından yararlanır, ingilis hökumətinin liderləri ilə məktublaşırdı.

1809-cu ildə ədəbi reaksiyanın zəfəri gözlənilməz bir hücuma məruz qaldı: İyirmi yaşındakı Bayron "İngilis bardları və Şotland müşahidəçiləri"də leykistləri kəskin ifşa edən tənqidiylə çıxış etdi.

Satiranın şüurlu istiqaməti artıq onun başlığından bəlli idi: Bayron leykistlərə "ingilis qoruyucuları" deməklə artıq onları ələ salır, onların orta əsr maskaradını və patriarxal keçmişə baş əymələrini lağa qoyurdu. Bayronun satirasında leykistlər kompakt qrup kimi hamısı birlikdə nəzərdən keçirilir. O "Göl məktəbi"nin tənqidinə saray karyerasını qurmuş və "balladaların satıcısı" adlandırdığı Sauti ilə başlayır. Bayron Sauti poemalarının qeyri-real, qeyri-bədii və yöndəmsiz fantastikasını ayrıca lağa qoyur.

Onu Sauti "məktəbi"nin "axmaq tələbəsi" olan "saf" Vordsvortun ingilis xalqının öz şeirlərindəki təsviri qəzəbləndirirdi. O Vordsvortun ədalı primitivizminin öldürücü tənqidi üçün "Dəli oğlan" balladasını işə cəlb edir. O, balladasının yazıq personajı ilə şairin özünü yaxınlaşdırır, Vordsvort ingilis kənd həyatının səfehliyinin səfeh şairi kimi təqdim edilir.

Üçüncü bard- şair Kolrici tənqid edərkən Bayron onun poeziyasının "qaranlığı", idealizmi və mistikasını lağa qoyurdu. XIX əsrin ingilis yazıçısı olaraq o artıq Napaleona qarşı mübarizənin əsl qəhrəmanlarının şöhrətinə qəsd etməyə çalışırdı. Vordsvorta görə fransız qoşunlarının məğlubiyyətinin səbəbi "Xalq mübarizə klubu" deyil, "təriqət" və onun tərəfindən açılmış ünsürlər idi. Vordsvortun bu tarixi həqiqətləri bilərəkdən pozmuş olduğu şeirləri Bayron və Şelli kimi ikinci qrup romantiklərin yaradıcılığından heyrət doğuracaq dərəcədə fərqlənirdi.

"Varlılara qarşı kasıbların müharibəsi"də qorxmuş Sauti öz fikirlərilə Vordsvortu da qorxudurdu. 1814-cü ildə Vordsvort daha öncədən təbliğ etdiyi dini itaət və stoisizm ideyalarını təkrarladığı "Gəzinti" poemasını çap etdirir. Bayron "Don Juan" əsərində Vordsvortun bu poemasının ikiüzlü ruhunu kəskin ittiham edirdi.

"Məhkəmənin xəyalı" poemasında Sauti ingilis cəmiyyətinin nifrətini qazanmış ölmüş Kral III Georq haqqında məsələni qaldırır. O, bu poemanın önsözündə "Göl məktəbi" haqqında Bayronun "Don Juan"daki istehzalı iradına cavab olaraq onu və Şellini açıq nişan vermiş və onları xəbərçilikdə ifşa etmişdir.

"..Qəlbi çirkin və xəyal gücü əxlaqsız olan insanlar.. insan cəmiyyətinin ən müqəddəs qanunlarına üsyan etdilər.. Bunların ən xarakterik özəlliyi qürur və həddsizlik cəsarətinin şeytani ruhudur.." deyə o yazırdı. [4, 53]

Toridəki "Kuryer" qəzetindəki məqaləsində Sauti Bayron və Şelli haqqında "ictimai asayişin quruluşunu məhv etməyə və eyni zamanda ayrı-ayrı ailələrə infeksiya tətbiq etməyə cəhd edən din və ailə əxlaqının düşmənləri" kimi danışırdı.

Təsadüfi deyil ki, sonradan daha fərasətsiz yoldaşları Sauti kimi Kolric və Vordsvort yaradıcılığı da öz tənəzzül mərhələsini yaşayırdı. Kolricin "Sivillanın yarpaqları" şeirlər toplusu bu düşüşün ən bariz sübutlarındandır. Şair onda müxtəlif illərə (1801-1816) aid olan şeirləri birləşdirir. Amma bütövlükdə götürdükdə bu toplu ümidsizliyin və ağrılı mistisizmin ümumi rəngiylə rənglənmişdir. Yazarın təsvirilə desək "məna və məqsədindən məhrum olan bir qaynaq" adlandırılan topluda artan pessimizm öz əksini tapmışdır. Dünyadakı və yaşamağı dəstəkləyən hər şeyə qarşı düşmənçilik, cəsarətsizlik və mənəviyatsızlıq "Fərdi ruhun inkişafı haqqında"(1807), "İnsan həyatı: Ölümsüzlüyün rədd edilməsi"(1815) və s. kimi şeirlərdə hökm etməkdədir. Yaradıcılıq gücləri

şairdə məhv olurdu. Kolric özü "Məyusluq" odasında dünyadakı bədii anlamasının, yaradıcı şəxsiyyətinin çöküşünü qabartmışdır.

İstedadın itirilməsi həmçinin Vordsvortun da sonrakı əsərlərində müşahidə edilir. 1819-cu ildə o qismən daha öncə də bilinən və Bayron tərəfindən gülüş obyektinə çevrilən "Piter Bell" əsərini çap etdirir. Bu şeirdə Vordsvortun insan şüurunu kiçiltmə və irrasional təfəkkürü ucaltma arzusu çılğın və gülməli formalar almışdır. Burada Vordsvort sərxoş və axmaq Piter Bellın onun təsiri və öz iradəsi hesabına güclənərək ruhsal çevrilməsini əks etdirmişdir. Vordsvortun şüurundaki düşkünlüyün - ekstaz halının ən geniş təsvir edildiyi əsər "Kilsə sonetləri"dir (1822). Əsərin əsas alt mətn ideası İngiltərə tarixini İngilis keşişlərinin timsalında təsvir etmək idi.

Müqəddəs İttifaqa və Lordlar cəlladlarına qulluq edən "Göl məktəbi"nin biyabırçı düşüşü Avropa kütlələrində Bayron və Şellinin böyük incəsənətinin çiçəklənməsinin qarşısını alırdı.

İngilis ədəbiyyatında tənqidi realizm dövrü yaxınlaşan bir vaxtda, XIX əsrin 20-30-cu illərində hələ də leykistlər öz estetik prinsiplərini davam etdirməkdə idilər.

"Don Juan"ın birinci mahnısı olan "İthaf"da göl məktəbinə çağırış edən Bayron yazırdı:

Bəli, siz hamınız cəmiyyətin çirkabları
Alnınızın abırsızlığını örtsün dəfnə ağacları,
Və ya çoxunuzda olmayan vicdan parıltısı.
Yarpaqları və meyvələri çələnglər yaradan
Mən heç istəmirəm də şan şöhrəti hər zaman. (sətri tərcümə) [3, 7]

Eyni mahnının 4-cü bəndində Bayron Vordsvorta səslənir. Ümumilikdə deyə bilərik ki, Bayron əsəri yazarkən ingilis ədəbi mühitini sarsıtmaqdan qorxmamış və açıq, kəskin tənqidlərlə çıxış etmişdir:

Və Vordsvort, olduqca uzun bir "Ekskursiya"
(Məncə, quartonun beş yüz səhifəsi var)
Vəhşi versiyasından bir nümunə verdi
Şagirdləri dəhşətə gətirən yeni sistemindən;
Bu şeirdir, ən azından etdiyi iddia ilə,
Və köpək ulduzu sinirləndiyində-
Bunu anlayan adam, mümkün ola bilər
Babil qülləsinə bir hekayə əlavə etmək. (sətri tərcümə) [3,6]

Eyni mahnının ilk bəndinə nəzər yetirdikdə Bayronun Sauti ilə olan fikir ayrılığı gözdən qaçmır:

Bob Sauti sən şairsən- şair laureat
Və bütün irqlərin nümayəndəsi
Hər nə qədər Torini bağladığın doğru olsa da
Sonunda- ortaq bir davamız oldu.
Və indi mənim Epik ruhanim, burda nə işin var?
Bütün leykistlərlə yan-yanasan?
Gözümdədir həssas bir insan toplusu
Bir çuxurdakı iyirmi dörd Qaraquş kimi (sətri tərcümə) [3, 5]

Lakin onu da göz önündə saxlamaq lazımdır ki, bütün bu qarşılıqlı münaqişələr yalnız ədəbi fəaliyyətlə bağlı deyil, həmçinin şəxsi münasibətlər zəminində baş vermişdir. Beləki, xüsusilə Sauti və Bayron arasında başlanan qarşıdurma sonradan Şelli, Vordsvort və Kolricə təsirsiz ötüşməmişdir. Öz çıxışlarında Sauti Bayronu insest adlandırmış və dövrün əxlaqsız şairi kimi tanınmasına vəsilə olmuşdur. Məhz bu çıxışından sonra Bayron tərəfindən kəskin tənqidlərə məruz qalan "Göl məktəbi" öz gözlənilən süqutunu yaşamışdır. Kolric timsalında bütöv bir leykist yaradıcılığını "uşaqcasına ədəbiyyat" [2, 63] adlandıran Bayron Vordsvortu öz mənəvi müəllimi adlandırmaqdan da heç çəkinməmişdir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Elizarova M. E, Qijdey S. P, Kolesnikov B. İ, Mixaylskaya N. P. XIX əsr xarici ədəbiyyat tarixi. Bakı, Azərbaycan dövlət Tədris-pedaqoji nəşriyyatı, 1964, 653 s.
2. Abeltina R, Fleija Dz, Misane A. English and American Literature. Riga, Zvaigzne Publ. House, 1976, 341 p.
3. Byron G. G. Don Juan. London, Whitefriars Publ, 1824, 817p.
4. Southey R. A vision of judgement. London. Longman, Hurst, Rees, Orme, and Brown publ, 1821, 126p.
5. https://www.enotes.com/topics/english-bards-scotch-reviewers/quotes/fools-my-theme-let-satire-my-song
6. https://www.shmoop.com/don-juan/dedication-summary.html


**G.Alekberli**

## The place and role of the Lake School in the English romanticism

### Summary


English and American bourgeois literary criticism has long portrayed the Lakers and their supporters as the greatest English poets of the 19th century. Often they are put above Byron and Shelley - truly great writers, who in their works constantly criticized the poets of the "Lake School", fought against their reactionary influence on the English reader. The literary activity of the Lakers continued until the middle of the XIX century. The lakers could not fail to see the breakdown of the old middle-aged patriarchal social relations that took place before their eyes, but, mourning her, still believed in the possibility of preserving the small-property structure in the conditions of rapid capitalist development. In the middle of the first decade of the 19th century, the Lake School became an officially recognized group of writers representing the dominant current of English literature. The ruling classes of England gave them support and patronage. In 1809, the triumvirate of literary reaction was subjected to an unexpected and decisive attack: Twenty-year-old Byron made a mockery and revealing criticism of the Lakers in his "English bards and Scottish observers." It was time for the approval of critical realism in English literature. And yet, in the twenties and thirties of the nineteenth century, attempts were made to maintain the tradition of Lake School reactionary aesthetics based on the principles of subjective idealism.


Key words: Byron, Lake school, Wordsworth, English romanticism, Southey, Coleridge

**Г.Алекберли**

**Роль и значение Озерной Школы в английском романтизме**

**Резюме**

Английское и американское буржуазное литературоведение с давних пор изображает лэйкистов и их сторонников крупнейшими английскими поэтами XIX века. Нередко их ставят выше Байрона и Шелли - подлинно великих писателей, которые в своих произведениях постоянно выступали с критикой поэтов "Озерной школы", боролись против их реакционного влияния на английского читателя. . Литературная деятельность лэйкистов продолжалась до середины XIX столетия. Лэйкисты не могли не видеть ломки старых полусредневековых патриархальных, общественных отношений, которая происходила на их глазах, но, оплакивая ее, верили все же в возможность сохранения мелкособственнического уклада в условиях бурного капиталистического развития. В середине первого десятилетия XIX века "Озерная школа" превратилась в официально признанную группу писателей, представлявших господствующее течение английской литературы. Правящие классы Англии оказывали им поддержку и покровительство. В 1809 г. триумвират литературной реакции подвергся неожиданному и решительному нападению: двадцатилетний Байрон выступил с осмеянием и разоблачающей критикой лэйкистов в своих "Английских бардах и шотландских обозревателях". Близилась пора утверждения критического реализма в английской литературе. И все же в 20-30-е годы XIX века еще делались попытки поддержать традицию лэйкистской реакционной эстетики, основанной на принципах субъективного идеализма.

Ключевые слова: Байрон, Озерная школа, Вордсворт,Англиская романтизм, Саути, Колридж

Redaksiyaya daxil olma tarixi: 20. 04.2019
Çapa qəbul olunma tarixi: 25.04.2019
Filologiya elmləri doktoru, professor Seyfəddin Rzasoy tərəfindən çapa tövsiyə olunmuşdur.